# DİLİNƏ, VƏTƏNİNƏ BAĞLI KÖNÜLLƏR



*Aygün SULTANLI*

*(Əvvəli ötən saylarımızda)*

## *"ÜÇRƏNGLİ BAYRAĞIM"*

Dövlətçiliyin atributlarından biri olan bayrağımız Azər baycan poeziyasının ən böyük mövzularından biri olub. Hələ Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrdə Cəfər Cabbarlı 29 iyul 1919-cu ildə "Azərbaycan" qəzetində "Azərbaycan Bayrağına" şeirini dərc etdirmişdi:

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli: üç boyalı, üç mənalı bayrağı!
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu? Aman Allah! Od yurdunun yarpağı.
Göy yapraklar, al çiçəklər, yaşıl otlar topasımı?
Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır,
Fəqət bizim bayrağımız yucaları pək seviyor,
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanır...
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə şöylə söyləmək:
Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Yürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı!
Səkkiz uclu şu yıldız da səkkiz hərfli "Od yurdu"
Səhərlərə uçmuşdur...
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı...

Ümummili liderimiz Heydər Əliyev yazır: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir".

Bayrağımızın bayraqlar arasında öz yeri var. Gözəlliyi, cazibədarlığı, cəlbediciliyi, əzəməti həmişə diqqəti çəkir. "Bayrağımızın üçrəngli olması ideyasının müəllifi Ə.Hüseynzadədir. Ay-ulduzlu və üçrəngli bayraq onun düşüncələrini ehtiva edirdi. Mavi rəng türklüyü, qırmızı rəng müasirliyi, yaşıl rəng isə dinimizə bağlılığı ifadə edir. Türk milli şüurunun təkamülü və onun orta əsrlərin ümmət fəlsəfəsindən milliyyət müstəvisinə çevrilməsi də Əli bəy Hüseynzadənin üç düsturu ilə bağlıdır. O düstur bu gün milli ideologiyamızın əsas prinsipləri kimi bayrağımızın rəngində öz əksini tapır. Əli bəy Hüseynzadənin Azər bay ca nın siyasi və milli ideoloji xəttini ifadə edən müla hi zə ləri sonrakı mərhələdə milli özünütəsdiqin və istiqlal sa vaşının işıqlı yollarını nişan verdi. Bu gün o yolla Türkiyə və Azərbaycan qardaş kimi əl-ələ, çiyin-çiyinə bərabər gedirlər. Bayrağın üzərindəki ağrəngli ay nişanı türk çü lü yü, səkkizguşəli ulduz isə "Azərbaycan" sözünün əski əlifbada səkkiz hərflə yazılışının göstəricisidir. Mülahizə lərə görə, 1918-ci ildə AXC-nin dövlət prinsipləri müəy yən ləşərkən səkkiz atributa əsaslanıb. Bunlar türkçü-lük, islam -çılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabər lik, azərbaycançılıq və mədəniyyətlilikdir. Səkkizguşəli ulduzun hər bucağı bu prinsiplərin bir rəmzindəndir"1.

Bəxtiyar Vahabzadənin "Bayraq" şeiri 90-cı illərdə qa zandığımız müstəqillik dövrünün ən yaxşı bədii nümunəsidir:

Torpağım üstünə kölgələr salan,
Mənim varlığımın cilası-bayraq.
Zəfərdən doğulmuş, Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Gülxani Pənah üçrəngli bayrağımızın keçib gəldiyi keşməkeşli yolları, uğrunda tökülən qanları, rənginə boyandığı şəhid qanlarını unutmur. "Doğma bayraq" şeirində isə:

Dinim, dilim, azadlığım
sәndә yaşar;
Al qırmızı qanımıza,
yaşıl rəngimizə
boyanmısan!
Sevincimiz aşıb daşar...
Düşmən səni görüb yanır
hikkəsindən.
Qorxa-qorxa, əsə-əsə,
mat-mat baxır duruşuna...
Dönürsən he-e-eyyy
Doğma bayraq
Paxılların boğazına tökülən
qurğuşuna.

Bu misralarda Azərbaycan bayrağının yenidən vətən torpağının mavi səmasında dalğalanmasından qürur duyan şairənin kövrək hissləri, sevinci əsasdır. Bu sevinc, əlbəttə ki, mənfur düşmənlərimizi sevindirmir. Onların qəlblərindəki qara düşüncələrini şairə dilə gətirib bildirir ki, onlar istəklərinə nail ola bilməyəcəklər. Çünki onun taleyi azad-lıqsevərlərin əlindədir.

Başım üstə dalğalan sən,
dəniz kimi.
Keşiyində daim durum
bir qul kimi,
kəniz kimi...
Baş endirim,
qoy diz çöküm,
önündə mən hər gün,
hər an!

Tanrının onlara bəxş etdiyi bu böyük səadətin qarşı-sında daima diz çökməyə, onun qulu olmağa, ona itaət etməyə, onun bir daha enməməsi üçün yolunda canını fəda etməyə hazırdır:

Qoy önündə qatlansın
düşmən üçün
qatlanmayan bu dizlərim!
Hər baxdıqca vüqarına
şölələnsin,
alov saçsın gözlərim!
Şölələnsin gözlərim!
Doğma bayraq!
Doğma bayraq!

Onun üçün azadlığın rəhni olan doğma bayraq Yara-danın bəxş etdiyi müqəddəs bir bəxşişdir. Hər bir misrasında qanla, canla qazanılan bayrağı qorumağı, daim uca tutmağı tövsiyə edir. Çünki onun üçün, hər birimiz üçün, hər bir azərbaycanlı üçün Azərbaycan bayrağı toxunulmaz, daim zirvələrdə olan, yenilməz bir şərəfdir.

Dediyimiz kimi, dövlətimizin müstəqilliyini təcəs-süm etdirən, onun atributlarından biri olan müqəddəs rəmz dir bayraq. Üç rəngə bürünüb tarixləri, əsrləri üzərin-də yaşadan şərəfimizdir bayraq. Bayrağını uca tutan, onun müqəddəsliyini duyan, ona dəyər verən Gülxani Pənah "Üçrəngli bayrağım" adlı şeirində məhz bayrağımızın qüdrətini, müqəddəsliyini, toxunulmazlığını tərənnüm edir:

Hikmətin, qüdrətin vardır əzəldən,
Önündə diz çöküb, baş əyirəm mən.
Yenə varaqlayıb tariximizi,
Ən çətin illəri izləyirəm mən.

Şeirdə bu gün müstəqil Azərbaycanımızın üzərində dalğalanan bayrağımızın qüdrətindən, hikmətindən bəhs olunur. Bayrağımız əsrlərlə tarix yazıb, yazır və yazacaq. Müəllif bildirir ki, bayrağımıza baxanda dövlətimizin ən çətin illərini xatırlayır. Gözümüzün nuru olan bayrağımız bu gün azad dalğalanmaq üçün zamanın çox ağır sınaqlarından çıxmışdır, bayrağımız Bayraq olmaq üçün yüz minlərlə şəhidlərimizin bu yolda tökülən qanından da rəng almışdır. Bu gün bayrağımızın bayraqlar arasında vüqarla dalğalanmasında böyük sərkərdələrimizin, dövlət xadimlərimizin rolunu da yüksək qiymətləndirir:

Ağıllı, qüdrətli sərkərdələr var,
Olubdur, olmuşdur, yenə olacaq!
Nə qədər dünya var, bu kainat var,
Tarixim tarixdə hər vaxt qalacaq.

1918-ci ildə müstəqillik əldə etdiyimiz zaman bayrağımız doğma torpaqları üzərində vüqarla dalğalanırdı. Torpağımıza, xammalımıza, sərvətlərimizə göz dikənlər öz çirkin niyyətlərini həyata keçirmək üçün dəridən-qabıqdan çıxırdılar. Savadlı, elm



sahiblərindən tutmuş sadə vətəndaşlarımıza qədər azadlığımız üçün vuruşurdu. Həmin il-lərdə Azərbaycan Xalq Cumhuriyyətinin ömrü az olsa da, bayrağımızın nə zamansa yenidən dalğalanacağına inamımız böyük idi. Müəllifin dediyi kimi, bu məmləkət tarixə şərəfi, şanı ilə adını yazıb. Bu şərəf və ləyaqət o bayrağı yenə dalğalandıracaq.

Şərəfli tarixi olan millətin,
Tarixdə şərəfli yeri də vardır.
Mənim ana yurdum, doğma vətənim,
Odlar məskənidir, böyük diyardır!

Həqiqətən də qeyrətli, mübariz xalqımız 70 ildən son ra canları, qanları bahasına azadlığı yenidən qazandı, məğrur bayrağımızı zirvələrdə yenidən dalğalandırdılar. Bayraq millətin imzası, onun kimliyini isbat edən şərəfli var lıqdır. Bu şərəfi qorumaq hər bir azərbaycanlının borcudur.

Üçrəngli bayrağımız milli birliyimizin təcəssümüdür, şəhid ruhlarımızın daşıyı-cısıdır. Fəxrlə deyə bilərəm ki, bayrağımız yolunda yüzlərlə igidlərimiz şəhid olublar. On-ların şücaətidir ki, bayrağımız təkcə Azərbaycanda yox, dün ya dövlətlərinin yaratdığı bir çox beynəlxalq təşkilatların qarşısında da dünya ölkələrinin bayraqları ilə birgə dal-ğalanır.

Üçrəngli bayrağı öpürəm qəlbən,
Tarixi tariximi, adım, sanımdır.
Mənimçün dünyada bil ki, müqəddəs,
Vətənim, Bayrağım, Azərbaycanımdır!

Şeirin bu bəndində müəllifin bayrağımıza olan hörmətini, sevgisini görürük. Bütün xalqımız üçün Vətən, bayraq müqəddəsdir, qürurdur.

"Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan etmişdir".

***2022***